# Qadınlara qarşı **gender zorakılığı**

**Qadınlara qarşı gender zorakılığı məhz qadın olduqlarına görə kişilər tərəfindən onlara qarşı törədilən fiziki, cinsi, psixoloji xəsarət, əzab vermə, onların azadlıqlarının məhdudlaşdırılması deməkdir.**

**95% hallarda gender əsaslı zorakılıq məhz qadınlara yönəlmiş olur.**



## Zorakılığa məruz qalmış qadınlar hüquqi və ya tibbi yardım üçün bu təşkilatlara müraciət edə bilərlər:

Daxili İşlər Nazirliyi:
**Tel.: 102**

Daxili İşlər Nazirliyinin
İnsan Alverinə Qarşı Mübarizə İdarəsi:
**Tel.: 152, (012) 562-21-12**

Uşaq Hüquqları Klinikası:
**Tel.: (012) 480-22-31**

Zorakılıq və cinayətin qurbanı olmuş
Uşaq və Gənclər üçün Psixo-Sosial Reabilitasiya Mərkəzi:
**Tel.: (012) 480-38-75; (012) 480-22-80**

"Ümidli Gələcək" Gənclər Təşkilatı:
**Tel.: (012) 493-21-42, (050) 349-29-48**

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi:
**Tel.: (012) 497-10-58**

Müraciətlərin anonimliyi qorunur.

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
www.isim.az

Buklet "Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 1.3.3-cü bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir. Bukletin hazırlanmasında BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən texniki dəstək göstərilmişdir.

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi



## Qadınlar həyatlarının müxtəlif dövrlərində gender əsaslı zorakılıqla üzləşə bilərlər:

• **Hamiləlik dövrü:** dünyaya gələcək uşağın cinsinin qız olmasına görə abort.

• **Uşaqlıq dövrü:** qız olduğuna görə ona qarşı emosional və fiziki zorakılıq (oğlan uşağı ilə müqayisədə qida, geyim və digər ehtiyaclarının daha az təmin olunması), etinasız yanaşma, onun təhsildən yayındırılması.

• **Yeniyetmə dövrü:** ailəsi tərəfindən onun erkən nikaha cəlb edilməsi, peşəyə yiyələnmək imkanının məhdudlaşdırılması, ona ailədə alçaldıcı münasibət, ailə quranda "başlıq" və ya "süd pulu"nun alınması.

• **Yetkinlik dövrü:** onun cehizin az olmasına görə əri və ya qohumları tərəfindən alçaldılması, azad fikir bildirmək hüququnun məhdudlaşdırılması, uşaqların tərbiyəsində və digər ailə-məişət problemlərinin həllində yükün çox hissəsinin onun üzərinə atılması, məcburi hamiləlik və məcburi abort.

## Qadınlara qarşı gender zorakılığı əsasən aşağıdakı hallarda baş verir:

• **Ailədə:** kişilər tərəfindən qadınların qərar qəbul etmə prosesindən uzaq tutulmaları, yalnız ev işləri ilə məşğul olmaları əsas gətirilərək işləmələrinə qadağa qoyulması, maddi cəhətdən asılı saxlanılmaları.

• **İşdə:** kişilər tərəfindən qadınların karyeralarında irəliləmələrinə maneə və ya irəliləmə üçün cinsi təkliflər edilməsi, idarəçilikdə kişilərə üstünlük verilməsi, bəzi peşələrin yalnız kişilərə aid olduğunun göstərilməsi, işə qəbul zamanı işəgötürən tərəfindən subay qadınlara üstünlük verilməsi.

• **Cəmiyyətdə:** qadınların ictimai nəqliyyatdan istifadə edərkən, avtomobil idarə edərkən, asudə vaxt keçirərkən və s. təzyiq və zorakılıqla üzləşmələri.

## Qadınlara qarşı gender zorakılığı bunlara səbəb olur:

• Qadının özünütəsdiq imkanından məhrum edilməsinə
• Qadının kişidən daha çox asılı vəziyyətə salınmasına
• Qadının özünü aşağı qiymətləndirməsinə
• Ailə daxilində zorakılıq görmüş və onu incidənə qarşı hiss etdiyini deyə bilmədiyindən içində qəzəb yaranmış qadının ciddi psixofizioloji narahatlığına

Qadınların gender zorakılığına, ayrı-seçkiliyə məruz qalmalarına tarix boyu cəmiyyətdə formalaşmış məhz kişi və qadın rolları, davranışları, peşələri haqqında yanlış təsəvvürlər təkan verir.

